

# Gözəllik və məhəbbət şairi

*Qazax torpağı Azərbaycan ədəbiyyatına görkəmli şair və yazıçılar, azmanlar, söz sərrafları bəxş etmişdir. Belə qüdrətli sənətkarlardan biri Azərbaycan xalq poeziyasının yaradıcısı, XVIII əsrin böyük lirik şairi Molla Pənah Vaqifdir. M.P. Vaqif çoxəsrlik Azərbaycan ədəbiyyatının inkişafında yeni bir dövr açmışdır. Şerimizi yad təsirlərdən xilas edən, onu saf Azərbaycan dilinin axarına salan şair, mütəfəkkir alim, siyasi xadim, diplomat Molla Pənah Vaqif olmuşdur.*

Vaqifin lirikası xalq ədəbiyyatı, xalq poeziyası ilə qırılmaz tellərlə bağlıdır, yaradıcılığı xalq çeşməsindən su içmişdir. Heca vəznində xalq danışıq dilinə uyğun üslubda yazdığı şerləriylə Azərbaycan poeziyasını zənginləşdirmişdir. Öz dövrünün və özündən sonrakı şairlərin və aşıqların yaradıcılığına güclü təsir göstərmişdir. Vaqif ədəbiyyatımızda realist Azərbaycan poeziyasının banisi kimi tanınır.

Molla Pənah Vaqif 1717-ci ildə Qazax mahalının Salahlı kəndində anadan olmuşdur. Şairin əsl adı Pənah, məktəbdarlıqla məşğul olduğundan Molla Pənah adı ilə xalq arasında tanınır. Vaqif ömrünün 40-42 ilini Qazaxda keçirmişdir. 1759-cu ildə Qazaxdan Qarabağa getmiş, İbrahim xanın vəziri olmuş, 80 il ömür sürmüşdür. Ağa Məhəmməd Şah Qacarın qətlindən sonra Qarabağda hakimiyyəti ələ keçirən Məhəmməd Cavanşir əmisi İbrahim xanın yaxın adamı kimi Vaqifi və onun oğlu Əli bəyi 1797-ci ildə Şuşada edam etdirmişdir. Deməк Vaqifin faciəli ölümündən 210 il, anadan olmasından 290 il keçir. Akademik Həmid Araslı yazır: «Vaqif lirikası ilə poeziyada yeni bir səhifə açılır, poeziyamızda nikbin bir əhval-ruhiyyə, həyata və dünyəvi gözəlliyə pərəstiş hissləri qüvvətlənir. Vaqif yüksək zövq, incə hisslər, dərin və nikbin duyğular şairidir. Onun yaradıcılığında da gözəllik və məhəbbət lirikası əsas yer tutur. O xalqdan qüvvət almış, xalq ədəbiyyatının nikbin əhval-ruhiyyəsindən qidalanmışdır».

İlhamını sazlı-sözlü, musiqili-nəğməli məclislərdən, gözəllikdən, məhəbbətdən almış, bütün bunlar şairin qəlbində dərin izlər salmış, onun söz süzgəcindən keçərək şerlərinin ruhuna-canına hopmuş, bir-birindən gözəl qoşmalarda, gəraylılarda və təcnislərdə öz heyrətamiz əksini tapmışdır. Aşıq Qurbanidən, Tufarqanlı Abbasdan başlanan xalq şerləri Vaqifin qələmində elə yüksək zirvəyə qalxmışdır ki, həmin şerlərin yazılmasından təqribən 270 il keçməsinə baxmayaraq yenə də bahar çiçəkləri kimi ətirli və təravətlidir.

Vaqifin poeziyası həyati poeziyadır. İllər keçsə də, qərinələr ötsə də onun poeziyası təzə-tərdir. Uzun ömürlü, əbədbiyaşar, mənalı və məzmunlu, oxunaqlı və yaddaqalandır. Vaqif öz rübabını xalq ruhunda kökləmiş, şerimizi və ana dilimizi yad təsirlərdən qorumuş, gözəlləşdirmiş və saflaşdırmışdır. Vaqif şerlərini xalqın başa düşəcəyi sadə dildə yazmış, ona görə də şerləri dillər əzbəri olmuş, sözləri məclislərdə xanəndələr tərəfindən oxunmuşdur. Vaqif poeziyası insanları yaşamağa, qurub-yaratmağa, gözəllikdən, məhəbbətdən zövq almağa ruhlandırır. Vaqifdən başlanır Azərbaycan dili, Azərbaycan şeri...

Vaqif poeziyası tükənməz bir xəzinədir. Şairlərimiz, aşıqlarımız zaman-zaman bu ölməz poeziyadan faydalanmışlar. Səməd Vurğun, Osman Sarıvəlli, Mirvarid Dilbazi, Hüseyn Arif, Nəriman Həsənzadə, Həmid Abbas poeziyası Vaqif çeşməsindən su içmişdir.

Vidadi – Vaqif dostluğu dillərdə dastandır. Bu saf dostluq sonralar əbədi qohumluğa çevrilib... Vaqifin 2 qızı M.V.Vidadinin gəlinləri olmuşdur. Bu dostluq ənənəsi şairlərimizə də keçmişdir. Sabirlə Mirzə Cəlil, Səməd Vurğunla Osman Sarıvəlli dostluğunu buna misal göstərmək olar.

Qazax mahalının Salahlı kəndi Azərbaycan ədəbiyyatına Molla Pənah Vaqif və Səməd Vurğun kimi iki qüdrətli şair vermişdir. M.P. Vaqif XVIII əsrin, S.Vurğun isə XX əsrin korifey sənətkarlarıdır.

Azərbaycanın görkəmli söz ustası, xalq şairi böyük Səməd Vurğun yazır: «Hələ uşaq ikən mən Vaqif yaradıcılığının təsiri altında idim. Onun gözəl şerləri, aydın və xalq dili mənim yaradıcılığıma böyük təsir göstərmişdir... Mən ilk şerlərimi Vaqifin qüvvətli poetik cazibə qüvvəsinin təsiri altında yazmışam». Sənət poeziyamızın qüdrətli şair və dramaturqu Səməd Vurğun öz sələfi, ustadı saydığı Molla Pənah Vaqifin şərəfinə bir çox şerlər yazmışdır. S.Vurğun rus poeziyasının günəşi A.S.Puşkinin «Yevgeni Onegin» mənzum romanını ana dilimizə yüksək poetik ilhamla tərcümə etmişdir. O bu münasibətlə yazmışdır:

*Axıtdım alnımın inci tərini,*
*Yanmadım ömrümün iki ilinə.*
*Rusiya şerinin şah əsərini,*
*Çevirdim Vaqifin şirin dilinə!*

Səməd Vurğun özünün şah əsəri olan «Vaqif» dramını böyük şairin həyatına həsr etmişdir. Əsər Dövlət Mükafatına layiq görülmüşdür. «Vaqif» pyesi uzun illər teatr səhnəmizin repertuarından düşməyən ən qiymətli əsərlərdən biri olmuş, müəllifinə şan-şöhrət gətirmişdir. Teatrımızda Vaqif rolunun ən mahir ifaçısı xalq artisti Ələsgər Ələkbərov olmuşdur. Səməd Vurğun oğullarından birinin adını ustadına ehtiram əlaməti olaraq Vaqif qoymuşdur. Vaqif Səmədoğlu ona qoyulan adı şərəflə doğrultdu. O, Azərbaycanın xalq şairi, Milli Məclisin deputatıdır.

Deyilənə görə Səməd Vurğun 1947-ci ildə Salahlı kəndində öz xərcinə Vaqifə abidə (inzibati idarə binasının qarşısında) ucaltmışdır.

80-cı illərdən başlayaraq hər il Qazaxda Vurğun və Vaqif poeziya günləri keçirilir. Bu şerə-sənətə, sənətkara xalq ehtiramının ifadəsidir.

Qazaxda «Mütəfəkkirlər bağı»nda M.V.Vidadinin və M.P.Vaqifin qoşa heykəlləri ucaldılmışdır. Hər iki söz dühasının şərəfinə rayonumuzda Xatirə muzeyi vardır. Muzeydə «Vaqif» ədəbi məclisi fəaliyyət göstərir.

Dövlətimiz M.P.Vaqif irsinə qayğı və hörmətlə yanaşır. Əsərləri latın qrafikası əsasında təkrar nəşr olunmuşdur. Xalq «hər oxuyan Molla Pənah olmaz» zərb məsəlini yaratmışdır.

Arzum budur, Molla Pənah Vaqifin yubileyini Qarabağda, Şuşada, Cıdır düzündə bayram edək!

**Kazım KAZIMLI**